## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 mart (Cümə günü) tarixli 136-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 11 cəmadiyəlaxir sənə 1337.
14 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Nəcəfqulu Rzayev öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzün və kədərlə] öz qövm-əqrəba və dost-aşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5748*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Kərbəlayi Əlihüseyn Kərbəlayi Əbdürrəhim oğlu öz qardaşı Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5741*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Möhsün Səlimov öz sevgili dostu **Məşhədi Adil Kərbəlayi** Əbdürrəhim oğlunun Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5742*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Heybət Babayev öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlunun Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5749*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Eyyub bəy Məşhədibəyov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5743*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Şıx Balayev öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlunun Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5754*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mətləb Sadıqov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5745*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məhəmməd bəy Məşhədibəyov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5746*

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məhəmmədağa Molla Ağakişi oğlu Abdullabəyov öz sevgili dostu Məşhədi **Adil Kərbəlayi Əbdürrəhim** oğlu Kürdəxanlı "millət xadimi"nin martın 12-sində vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dostaşnalarına məlum edir.

Mərhumun cənazəsi cümə günü martın 14-ündə səhər saat 9-da Pervı Paralelni və Deviçinski küçələrin küncündə 42 nömrəli evdən Təzə məscidə aparılacaq.

*5747*

### ÜMUM MÜSƏLMANLARA VƏ MÜSƏLMAN TƏŞKİLAT VƏ MÜƏSSİSƏLƏRİNƏ

Azərbaycan Məclisi-Məbusanı İdarəsinə təhriran [yazılı olaraq] müraciət etdikdə türkcə müraciət etməlari və əgər başqa dildə müraciət edərlərsə, istida və xahişlərin bisərəncam qalacağı elam edilir [bildirilir].

*T-62*

### OPERETTA
### AXŞAM TAMAŞASI

Azərbaycan Hökuməti Teatrosunda
Zülfüqar bəy və
Üzeyir bəy Hacıbəyli
Qardaşları Müdiriyyəti
tərəfindən cümə günü
cəmadiyəlaxır ayının 11-ində
(1919-ncu sənəsi martın 14-ündə)
Müdiriyyətin məşhur artistkaları
Süreyya xanım və Xanım Tanailidinin
şərəfinə (benefisinə) Üzeyir bəy Hacıbəylinin
yazmış olduğu məşhur
**"Arşın mal alan"**
Biletlər benefis qiymətinə indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.

### İXTAR
### [XƏBƏRDARLIQ]

"Bakı və Ətrafının Zəhmətkeş Ziyalıları İttifaqı" bütün işsiz qalmış ziyalılardan rica edir ki, işbu mart ayının 15-dən başlayaraq idarəyə təşrif gətirib kəndilərini yazdırsınlar. İdarə səhər saat 11-dən 2-yə kimi açıq olacaqdır. İttifaqa üzv olmaq istəyənlər isə idarə mənzilində katib Camo bəy Cəbrayılzadəyə rücu [müraciət] edə bilərlər.

Ünvan: Vrangelski və Voznesenski sokakların guşəsində 3 nömrəli bina, qapısı Voznesenskidən.

*5750*

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Məşixətdən [Şeyxülislamlıq İdarəsindən]**

İşbu 1919 sənəsinin mart 11-ndən etibarən Şamaxı şəhəri əhlindən (Bakıda iqamət edən [yaşayan]) Hacı Şeyx Həsən Axund Molla Sadıqzadə İdareyi-Məşixətdə üzvlük mənsəbinə nəsb və tayin edilmişdir.

*Məşixət sədrləri: [Axund Ağa] Ağaəlizadə, [Mustafa] Əfəndizadə*

### HÜRRİYYƏT GÜNÜNÜN GÖSTƏRİŞİ

Azərbaycanın paytaxtı Rusiya inqilabi-kəbirinin böyük bayramını Bakının inqilablı, yəni küləkli bir günündə icra eylədi. Fəqət təbiətin inqilabına baxmayaraq, millətlərin həqqi-istiqlallarını elan etmiş olan böyük inqilab bayramını təbrik üçün Azərbaycan demokratiyası [xalqı] şənliyindən geri qalmadı.

Parlamanın müqabil al inqilab bayrağı ilə yanaşı duran üç rəngli dirəxşan [parlaq] yıldızlı milli Azərbaycan bayrağı və səma rəngli göy türk bayraqları ilə donadılmış [bəzənmiş] küçə, əksəriyyəti əmələdən [fəhlələrdən] ibarət minlərə baliğ [çatan] xalqla dolmuşdu.

Hürriyyət alqışlanır, Məclis alqışlanır, "Yaşasın Azərbaycan!" denilirdi.

Məbuslar, Parlaman rəisi və nazirlər xalqı təbrik edir, xalq kəndi mötəmədlərini [etimad etdiyi şəxsləri] alqışlayırdı. Parlaman binası bu gün başqa bir şükuh [təntənə], başqa bir cilvədə idi.

Hürriyyət bayrağı ilə istiqlal bayrağı, bu, əslində nuri-ürfan saçan binanın üzərində Bakı yelinin təsiri ilə püriztirab [iztirablı halda] çırpınır və sıcaq busələrlə yekdigəri ilə öpüşürdü.

Ötədə "İsmailiyyə"nin yanıq binası kəndisini təskinə gələn xalqa məlul bir nəzərlə baxır, fəqət kəndisini unutmayıb üzərinə iki hürriyyət və istiqlal bayrağını taxdıqları üçün millətə zəbani-hal ilə ərzi-şükran edirdi.

Parlamandan sonra müsəlman əmələləri "Raboçi klub" [Fəhlə klubu] binasında toplaşdılar. Bura da eyni təzahürat ilə və hürriyyətpərvəranə ilə keçdi. Parlamanı təbrik qətnaməsi qəbul olundu. Rayonlarda dəxi əhval bu surətlə keçmiş, türk demokratiyası kəndisinin istiqlalpərvər olduğunu rəna [gözəl] surətdə göstərmişdir.

Bu xüsusu bərtəfsil [ətraflı] qismi-məxsusumuzda [xüsusi hissəmizdə] oxuyacaqsınız. Biz yalnız bu göstərişlərin mənayi-əslisini qeyd etmək istəriz. Bu məna isə bizcə əvvəlcə də bəlli idi. Fəqət qoy münkirlər [inkar edənlər] də görsünlər, anlasınlar ki, Azərbaycan istiqlalı bəylər, xanlar və ağalar fikri deyil, türk demokratiyasının tələbi və amalıdır.

Var olsun türk demokratiyası!

*M. Ə.*

### TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərlə mübarizə**

* Don ordusu Krasnovka ilə Pokrovski denilən yeri işğal etmişlərdir. Don hövzəsində iki zabit batalyonu Rotı mövqifini [stansiyasını] işğal etmişlərdir. Bu mövqif Baxmutun 12 ağaclığındadır və vuruşmada 8 yüz nəfər ölən vardır.

* Şimali Qafqaziyada Denikin qoşunları Kumarinə çatmışlardır.

* Bolşeviklər Səmərqənddə Cərcoda olduğu kimi qital [qırğın] başlayıb 300 adam öldürmüşlərdir. Cərcoda bolşevik qoşunları qayət biintizam bir haldadır. Bu yaxınlarda bir çox macarlılar Orenburqa əzimət etmişlərdir [yola düşmüşlər]. Oradan da öz vətənlərinə keçəcəkdirlər.

* Axırıncı xəbərlərə görə, bolşeviklər əleyhinə olan qoşunlar Daşkənd yanında olan Çernyayevo mövqifini işğal etmişlərdir. Böyləliklə Daşkənddə olan bolşeviklərlə Amudərya cəbhəsindəki və Səmərqənddəki bolşeviklərin əlaqəsi kəsilmişdir. Bu dəstə Əndican xəttinə də malik olduğundan bolşeviklər öz paravozları üçün daşkömür hasil etməkdən məhrum olmuşlar. Bir tərəfdən də neft olmadığından onların əhvalı daha da fənalaşır.

**Almaniyada**

* Veymardan verilən rəsmi xəbərlərə görə Berlin sosialist nümayəndələri ilə Kabinə arasında ixtilaf əmələ gəlmişdir. Axşam qatarı ilə əmələ nümayəndələri Berlinə varid olmuşlardır [gəlmişlər]. Bunlar tətil etmiş əmələlərin tələblərini hökumətə bəyan edəcəklər.

* Berlində olan ümumi tətil halı hələ təbəddülatsızdır. Berlin əmələlərinin yalnız bir hissəsi, o da könülsüz tətilə qoşulmuşlardır. Elektrik idarələrinin xidmətçiləri bəyan etmişlər ki, ümumi tətil itmam [tamam] olduqdan sonra tətili tərk edəcəklərdir. Mərkəzi hökumət qərar qoymuşdur ki, tətili silah gücü ilə də olsa yatırtsın. Polkovnik Reynqartın könüllü ordusu və general fon Lütviz topxana ilə Berlinə varid olmuşlardır. Berlin küçələrində saldatlar görünür. Berlin komandanı əhaliyə müraciətlə tətilçilərə qarşı ciddi tədbirlər ittixaz edəcəyini [tədbirlər görəcəyini] bildirir.

* Mart ayının 6-sında bə'dəzzöhr [günortadan sonra] hökumət qoşunları müvəffəqiyyətlə irəliləmişlərdir. Könüllü orduların və qvardiyanın spartak və qarətçilərə qarşı hücumu müvəffəqiyyətlə davam edir. Polis idarəsi üsyan etmiş şəxslər tərəfindən mühasirə edilmişdir. İstila qoşunları şəhərə varid olub, hökumət əleyhinə olan şəxslərin silahını almışlardır. Qısa bir müharibədən sonra spartaklar çəkilməyə başlamışlardır.

* Duysburg şəhər qlavasına spartaklar ultimatum verərək tələb edirlər ki, əmələlərə silah paylanıb, məhbusları azad etsinlər.

**Amerika qoşunları**

Parisdən teleqraf ilə xəbər verilir ki, Avropadan Amerika əsgərlərini Amerikaya aparmaqdan ötrü Almaniya paraxodları hazır edilmişdir. Qərb cəbhəsində bulunan Amerika qoşunları da bu yaxınlarda Amerikaya övdət edəcəkdirlər [qayıdacaqlar].

**Klemansonun yaralanması barəsində**

Parisdən xəbər verilir ki, Fransanın burjuaznı mətbuatı Klemansoya suiqəsd hazırlamaqları ilə bolşevikləri təqsirləndirirlər.

* Rusiyanın sabiq siyasiyyunlarından [siyasətçilərindən] Avksentyev Kanada vasitəsilə Nyu-Yorka varid olmuşdur. Oradan Sülh Konfransına Parisə əzimət edəcəkdir [yola düşəcəkdir].

**Fransada bahalıq**

Fransız hökuməti bahalığa qarşı ciddi tədbirlər ittixaz edir və çalışır ki, ən yaxın bir müddətədək bahalıq 40 faizədək əskilsin. Şəhərin 15 yerində böyük dükanlar açılmışdır. Bunlar əhaliyə ucuz mal buraxırlar. Bu yaxınlarda bir çox bu cür dükanlar açılacaqdır.

* Reyn və Berlində idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan edilmişdir. Yeni bir inqilab başlandığına dair məlumat alınmışdır. Yenə xəbər verilir ki, fon Lütviz Berlini spartaklara qarşı müdaifə edəcəkdir.

* Kopenhaqdan mart ayının 3-ündə göndərilən teleqraf xəbərlərinə nəzərən, Berlində bugünlərdə yeni bir iğtişaş başlanmışdır. Külli camaat polis nəfəratına hücum edərək polis idarələrini işğal etmişlərdir. İdareyi-əsgəriyyə elan və divani-hərb [hərbi məhkəmə] təşkil edildikdən sonra axşam saat 6-dan sonra küçələrdə görünənlər edam ediləcəklərdir.

* Bu gün Almaniya Milli Məclisi buraxılacaqdır. Hər halda bir dəxi Məclisin yığışmasına güman yoxdur.

### SÜLH ƏTRAFINDA

**Vilsonun Cəmiyyəti-Əqvam haqqında nitqi**

Nyu-Yorkdan xəbər verirlər ki, səşənbə [çərşənbə axşamı] günü rəisicümhur [prezident] Vilson Metropoliten Opera Teatrosunda Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] haqqında nümayişkaranə bir nitq irad etmişdir [təntənəli bir nitq söyləmişdir]. Teatroda bir çox siyasi və maliyyə xadimləri, böyük ticarət nümayəndələri və ziyalılar isbati-vücud [iştirak] edirmişlər. Vilson teatro səhnəsinə çıxdıqda sürəkli alqışlarla təbrik edilmişdir. Vilson demişdir ki, Amerikanın öhdəmə atdığı vəzifəni, yəni dünyada möhkəm sülh bərpasını müvəffəqiyyətlə axıra yetirməyincə Yevropadan qayıtmayacağam. Vilson azad olmuş millətlərin azad bir surətdə yaşamalarını tələb edir. Yevropada olan dövlət xadimləri gün-gündən Cəmiyyəti-Əqvam amalına şərik olmaqdadırlar. Vilson nitqini qüvvətli və aydın bir səs və dərin bir etiqad, bəzən həyəcanla söyləmişdir. Vilsonun nitqi sameinə [dinləyicilərə] böyük təsir bağışlamışdır.

**Vilsonun Yevropaya əziməti**

Çaharşənbə [çərşənbə] günü səhər, Vilson arvadı ilə bərabər "Corc Vaşinqton" hərbi gəmisində Yevropaya azim olmuşdur.

**Sülh Konfransında**

* Konfransda sülh şərtnaməsinin bir çox maddələrini və düşmənin şəraitini [şərtlərini] müzakirə etmişlərdir. Bu barədə qətnamə sabah qəbul ediləcəkdir. Burası məlumdur ki, Bohemiya, Avstriya və Bavariyaya ərzaq yetirmək məsələsi müzakirə edilmişdir. Orada olan Amerika və ingilislərin rəsmi adamları bəyan etmişlər ki, yuxarıda zikr edilən yerlərdə ərzaq məsələsi qayət fəna bir haldadır. Birinci olaraq Bohemiyaya və Bavariyaya ərzaq göndərilməlidir. Bu da aclığın qabağını saxlamaq üçün deyil, bəlkə bu yerlərə ərzaq yetirməklə bolşevizmanın qabağını saxlamaq üçündür. Sabahkı iclasda Huverin də iştirak edəcəyi gözlənir. Mümaileyh [adı keçən şəxs] İtaliya təriqi [yolu] ilə oralara nə vasitə ilə ərzaq göndərilməsinin mümkün olduğunu söyləyəcəkdir.

* Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə nəzərən Sülh Konfransının bütün komissiyaları ciddi surətdə işləyirlər. Hətta zənn edirlər ki, sülh şərtnaməsinin layihəsi aprelin 1-ədək qurtaracaqdır. Bir neçə maddələr tamamilə qurtarmışdır. Lloyd Corcun ciddi iştirakı ilə, bu həftə, yəni Vilsonun vürudu [gəlişi] mart ayının 14-ədək məramnamə qurtaracaq və sonra Vilsonun mütaliəsinə veriləcəkdir. Nemeslərə təqdim ediləcək bəzi sənədlər isə martın axırınadək hazır olacaqdır. Rəsmi dairələr də bu əqidədədirlər ki, nemeslər müttəhid [birgə] konfrans iclasına buraxılmayacaqlardır. Ancaq bunlar konfrans komitələri ilə əlaqədar olacaqlardır.

Parisdə olan amerikalılar öz işlərinin müvəffəqiyyətlə irəliləməsindən məmnundurlar. Rəsmi xəbərlərə nəzərən, Amerika Konqresi və milləti ciddiyyən Cəmiyyəti-Əqvam məsələsinə tərəfdardırlar.

**Eyfel qülləsindən çəkilən simsiz teleqraf**

Rəisi-cümhur Vilson, Müttəfiq dövlətlərin Xariciyyə nazirləri və Baş vəkilləri [Baş nazirləri] və Yaponiya nümayəndələrinin iştirakı ilə vaqe olan iclasda qət edilmişdir [qərara alınmışdır], bütün cahana simsiz telqrafla məlumat verilsin ki:

Millətlər arasında möhkəm sülh paydar [bərqərar] etmək üçün hal-hazırda konfransda iştirak edən Müttəfiq hökumətlər, Avropanın və Şərqin müxtəlif yerlərindən silah gücü ilə torpağa malik olmaq istəyənlər barəsində yetişən xəbərlərdən müşkülata düçar olmuşlardır. Millətlərin qanuni və haqlı iddiaları ancaq Sülh Konfransının qət və qərarına vagüzar edilməlidir [tapşırılmalıdır]. Bu müttəhid hökumətlər özlərinə borc bilirlər məlum etsinlər ki, silah gücü ilə torpağa malik olmaq bu cür üsula iqdam edənlərin [təşəbbüs edənlərin] iddialarına, tələblərinə böyük əngəl yetirər. Onların bu kimi iqdamatı [təşəbbüsü], yəni silah gücü ilə torpağa malik olmaq istəyənlər[in] özlərinin iddialarının haqlı olduqlarında şübhəli olduqlarını andırır. Onlar silah gücü ilə məcburiyyətlə o cür yerlərə sahib olmaq istəyib milli və tarixi şəraiti silaha tərcih verirlər. Silah gücü ilə iş görmək istəyənlər özlərinin haqlı tələblərinə ləkə vurmuş olurlar. Bununla da özlərinin konfransa etimadları olmadığını bildirmiş olurlar. Bu kimi işlərin nəticəsi qayət fəna olacaqdır. Hərgah böylə iqdamatda bulunanlar ədalət axtarırlarsa, silah istemalından [istifadəsindən] vaz keçib mütləq öz iddialarını Sülh Konfransına təqdim etməlidirlər.

* Pekin Yaponiya Xariciyyə naziri Çin Hökumətinə məlum eyləmişdir ki, Parisdə olan sülh nümayəndələri öz vəziyyətlərini dəyişdirməlidirlər. Yaponiya istəyir ki, Çin ilə Yaponiya arasında olan gizli əhdnamənin Sülh Konfransında açılmasına Çin Hökuməti məsul olsun. Çin nümayəndələri konfrans açılmadan əvvəl hər bir məsələdə Yaponiya nümayəndələri ilə bərabər işləməlidirlər. Yaponiya bunu da qeyd eyləmişdir ki, hərgah, Çin Hökuməti tərəfindən bu xüsusda lazım gələn müavinət [köməklik] edilməzsə, Yaponiya maliyyə cəhətindən Çin məmləkətini sıxışdıracaqdır. İndi Çin Hökuməti Yaponiyanın dostluğunu, yaxud əksini qəbula muxtardır [azaddır, ixtiyar sahibidir]. Çin dairələrində bəziləri rəisicümhuru Yaponiyaya qarşı güzəşt etməməyə vadar etmək istəyirlər. Yaponiyanın bu hərəkətləri Çin əhalisinin heyrətini mövcib olmuşdur [heyrətinə səbəb olmuşdur].

* Nyu-York Tokiodan çəkilən teleqrama nəzərən, Yaponiya Hökuməti Parisdəki sülh nümayəndələrinə düsturüləməl [təlimatnamə] göndərərək təklif edir ki, Çin ilə Yaponiya arasında olan əhdnaməni xüsusi surətdə Müttəfiq dövlətlərə bildirsinlər.

* "A. P." qəzetəsinin Vaşinqton müxbiri yazır ki, rəsmi diplomasi məlumata nəzərən Çin ilə Yaponiya arasında olan gizli əhdnamələri Çin nümayəndələri açsalar, Yaponiya Çinə elanihərb edəcəkdir. Müxbir zənn edir ki, Yaponiyanın bu hərəkəti sair Müttəfiq dövlətlər arasında xətrəyə [təhlükəyə] səbəb ola biləcəkdir. Çin Amerikanın, yaxud İngiltərənin müavinətini axtarır. Çin nümayəndələri Parisdə bəyan etmişlər ki, Yaponiyadan dəmiryol ilə gələrkən Çin ilə Yaponiya arasında bağlanmış əhdnamələrin surəti baqajdan oğurlanmışdır. Ona görə, nümayəndələr bu əhdnamələri elan etməyə imkan tapmamışlardır.

### QƏZETƏLƏRDƏN

**Vladiqafqazda**

Hal-hazırda Vladiqafqazda sakitlikdir. General Lyaxov "Paris" mehmanxanasında mənzil tutmuşdur. Vladiqafqazda qalan neçə min bolşevik əsgərləri hərbi əsir hesab edilirlər. Bunları məcburi surətdə işlədirlər. Vladiqafqaza ərzaq şeyləri gətirilməkdədir. Bununla belə, şəhərdə bahalıqdır. Qarğıdalı unundan bişən çörəyin girvənkəsi 5 manatdır. Yumurtanın 10 dənəsi 40 manata satılmaqdadır. "Terski kazak" adında nimrəsmi [yarırəsmi] qəzetə nəşr edilir. Bu qəzetədə əmrlər və rəsmi xəbərlər dərc edilməkdədir.

**Zaqafqaziya darülfünunu**

"Z. S." qəzetəsi xəbər verir ki, Azərbaycan Hökuməti Tiflisdə olan Zaqafqaziya Darülfünunnunun [Universitetinin] Bakıya köçürülməsi üçün darülfünun müdirinə rəsmi surətdə teleqraf göndərmişdir. Azərbyacan Hökuməti darülfünun məsarifi üçün ildə 5 milyon rublə və kitabxanadan ötrü 300 min rublə verməyi vəd etmişdir. Ermənistan Hökuməti də darülfünunun İrəvana köçürülməsi təklifində bulunmuşdur. Darülfünunun hara köçürüləcəyi hələ həll edilməmişdir.

**İngiltərə heyəti**

Üç nəfərdən ibarət İngiltərə heyəti məhəllində [yerində] işlərdən xəbərdar olmaqdan ötrü Trabzona əzimət etmişdir [getmişdir].

**Dəmiryol Komitəsi**

Dəmiryol münasibatını [rabitəsini] düzgün bir hala salmaqdan ötrü İngiltərə komandanlığı Zaqafqaziya cümhuriyyətlərinə müraciət edib Dəmiryol Komitəsi təşkil edilməsi təklifində bulunmuşdur. Komissiya başında İngiltərə nümayəndəsi durub, hər cümhuriyyətdən komissiyaya iki nəfər nümayəndə daxil olacaqdır. İngiltərə komandanlığının bu təklifinin axırıncı maddəsində deyilir ki, komissiya sədri üzvlərin rəyi ilə şərik olmadığı halda məsələləri o bildiyi kimi həll edəcəkdir.

**Türkiyədə**

Ənvər paşanın əmisi Xəlil paşanın qaçması haqqında İstanbulda şaye olan [yayılan] xəbər münasibətilə "Tərcümani-həqiqət" qəzetəsi yazır ki, neçə vaxtdır ki, Xəlil paşa heç də görülməyir. Ancaq məlumdur ki, Xəlil paşa 10 gün əqdəm [qabaq] evdən çıxıb daha geri qayıtmamışdır.

**İstanbulda Azərbaycan teatrosu**

İstanbulda "Azərbaycan Türk Dram və Operetta Cəmiyyəti" təşkil edilmişdir. Bu cəmiyyət, türk-Azərbaycan əsərlərini mövqeyi-tamaşaya qoymaqdadır. Bugünlərdə "Məşhədi İbad" operettası oynanıb, "Arşın Mal Alan" operettası da mövqeyi-tamaşaya qoyulmaq üçün hazırlanmaqdadır.

### TƏTİL GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Berlin** İsveçrə qəzetələrinin məlumatına görə, Yaponiya paytaxtı olan Tokioda hökumətə qarşı dəhşətli nümayiş olmuş, bu nümayişdə əmələlər [fəhlələr] və məktəb şagirdləri iştirak edərək, "Qəhr olsun padşahlıq" deyə qışqırırlarmış.

**Bazel** Babret şəhəri spartaklar tərəfindən işğal edilmişdir.

**Berlin** Berlində müntəşir [nəşr olunan] "Zatefand" qəzetəsi xəbər verir ki, Yassıda 60 min nəfər yeni əsgərliyə alınmış şəxslər əsgərlik vəzifəsindən imtina etmişlərdir.

**Luqano** İtaliyada əmələ [fəhlə] hərəkatı gündən-günə artır. Hökumət silah, top və pulemyot gücü ilə əmələ hərəkatını yatırtmaq istəyir.

**Kiyev** Serbiyada inqilab başlanır. Slaviyanın bir çox şəhər və qəsəbələrində mitinqlər qurulduğunu məlumat verirlər. Serbiya və Slaviyanın bir çox yerlərində əmələ şurası təşkil edilmişdir.

### NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində [Əmək Nazirliyində]**

Bir çox əşxas [şəxslər] İngiltərə komandanlığı cənbindəki [nəzdindəki] Məsai komissarına ərzihal verirlər ki, komissar həman ərzihalı sonra Məsai Nəzarətinə göndərirdi. Məsai Nəzarəti, İngiltərə komandanlığına müraciətən rica etmişdir ki, bundan sonra ərzihallar bilavasitə Məsai Nəzarətinin dəftərxanasına verilməlidir.

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bakı xəzinəsinə müraciətən məlum etmişdir ki, müsəlman ətfalına [uşaqlarına] məxsus darüleytamlar [yetimxanalar] üçün Müsəlman Ünas [Qadın] Cəmiyyəti-Xeyriyyəsi rəisəsi [Liza] Muxtarov[a] xanıma 50 min rublə buraxılsın.

### MƏKTƏBLƏRİMİZ

Milli vicdan, milli məktəblərlə doğar. Milli məktəbləri, milli müəllimləri olmayan bir millət müəyyən bir sima və məfkurəsi olmayan bir çocuğa bənzər ki, kəndi xeyir və şərini düşünəmməz, dost və düşmənini fərq edəmməz. İştə çocuqlara kəndini tanıdan, milli ruhlarını, hisslərini yüksəldən, onların dağ çeşmələri qədər saf və təmiz ürəklərində böyük milli bir məfkurə doğuran, gələcəkdə sevgili vətən və milləti üçün ən dəyərli və qiymətli övlad yetişdirən və sarsılmaz bir qüvvət hazırlayan milli məktəblərdir. İştə, milli məktəblər millətin nur və səadət çırağıdır.

Əvət, iqrar [etiraf] etməliyiz ki, şimdiyədək milli məktəblərimiz olmadığından, milliyyət naminə heç bir şeyimiz yox idi. Müstəbid çar hökuməti milli məktəblərin nə dərəcədə əhəmiyyətli olduğunu düşündüyündən, nerədə bu mübarək ocağın az-çox şölələnib yandığını görsəydi, dərhal o üçbarmaqlı xain bilək uzanar, fövrən [dərhal] o milli, müqəddəs ocaq söndürülürdü.

Millət və mədəniyyət uğrunda çalışmaq, çabalamaq bir xəyanət, çalışmamaq isə sədaqət sayılırdı.

Yaradana həmdlər olsun ki, o jandarma hökuməti yerinə milli Azərbaycan Hökuməti təşəkkül edib vətən və millətimizi idarə üçün ayrı-ayrı Nəzarətlər intixab olundu [seçildi]. Hər kəs vəzifəsi başına keçdi. Yaradandan həpsinə min-min tövfiq [kömək] diləərəm.

Şimdi altı aydır məktəblərimiz millləşmiş olduğundan, elmlər və fənlər tamamilə türk ana lisanında tədris olunur. Bu isə şayani-təqdir və pərəstişdir. Şübhəsiz məktəblərimiz və məktəblilər birər qəlib, müəllim isə sinfin ruhudur. Çalışqan və vicdanlı bir müəllim, sinfində nə kimi xariqələr yapa biləcəyi aşikardır.

Mən bir müəllim olduğum üçün ancaq məktəblərimiz haqqında bəhs etmək istəyirəm. Şimdiki məktəblərimizə və məmləkətimizin nə miqdar məktəbə ehtiyacı olduğuna nəzərən, kafi miqdarda müəllimlərimiz olmadığı kimi, mövcud bulunan müəllimlər içərisində dəxi əksəriyyətlə iki dürlü nöqsanlıq mövcuddur:

Birincisi, əslən müəllim olaraq rus darülmüəllimlərində [gimnaziyalarında] yetişmiş olan müəllimlərimizdir ki, bunlar əksəriyyət etibarı ilə türk ədəbiyyatına və fənni istilahlarına [elmi terminlərinə] vaqif deyildirlər.

İkincisi, xaricdə oxumuş və bilaxirə [sonra] məmləkətə süluk etmiş zəvatdır [gəlmiş şəxslərdir] ki, bunlar da üsuli-tədrisə əksəriyyətlə vaqif deyildirlər.

Üçüncü sinif – məktəblərimizin hər iki dürlü ehtiyacını rəf edə [qarşılaya] biləcək hazır müəllimlərimiz pək azdır.

Bunlardan maəda [başqa], məktəblərimizdə ən böyük ehtiyac kitabsızlıqdır ki, bu ehtiyac və nöqsan ən müqtədir və dahi müəllimlərimizi belə müvəffəqiyyətlərində aciz buraxmaqdadır. Bu xüsusatın təmini üçün ciddi təşəbbüs lazımdır:

Birinci, ümum məktəblərimizin ehtiyacını və müəllimlərimizin kamilən nöqsanını bilmək üçün bir dəfə ümumi müəllimlər konqresi tərtib edilməlidir.

İkinci, hər bir yerdə hazır müəllimlər arxadaşlarının nöqsanını ikmal [tamamlamaq] üçün məhəlli kurslar açılmalıdır.

Üçüncü, hər bir sinfə və hər bir fənnə məxsus mükəmməl kitablar tərtib etmək üçün ya müsabiqə açılmalı və yaxud müntəxəb [seçilmiş] müəllimlərdən müəyyən komisyonlar doğrulmalıdır ki, tezliklə məzkur [deyilən] kitabları təlif ya təbdil edərək [yazaraq yaxud dilimizə uyğunlaşdıraraq] vaxtında yetişdirilsin.

Bir əsgər qovğa meydanında ancaq əlindəki silahla müvəffəq ola bilər. Bir müəllim də bir əsgərdir. Silahı isə kitablarıdır. Kitabsız tədris edən bir müəllim, silahsız qovğa edən bir əsgərə bənzər. Silahsız bir əsgər qovğa meydanında nə qədər müvəffəq ola bilərsə, kitabsız bir müəllim də sinfində bir o qədər müvəffəqiyyət əldə edə bilər. Milli siniflərdə kitabsızlıq üzündən zavallı müəllim və mütəəllimlərimiz [şagirdlərimiz] nə qədər ağır zəhmət və məşəqqətlərə qatlanaraq, bir böhraniəzim [böyük böhran] içində yuvarlanırlar.

Bu nöqsanların ikmalı ilə bərabər, müəllimlərin maddi ehtiyacını da unutmamalıdır.

Şübhəsiz, bir millətin bir arzusu, istəyi, məfkurəsi olduğu kimi, hər fərdin də xüsusi arzu və istəyi ola bilər. Hər fərd də birinci kəndini və ailəsini düşünməyə haqlıdır. Kəndinin və ailəsinin həyatını təmin edəmməyən şəxs hər bir şeyi düşünəmməz və nə qədər mütəəssib [təəssübkeş] və "idealist" olarsa, heç bir işdə səmimi çalışammaz. Zira ki, insan hava ilə deyil, qida ilə yaşar.

Bir insan kəndini və ailəsini gözəlcə bəsləyə bildiyi təqdirdə, havassı cəm [lazımi xüsusiyyətləri özündə toplaya] və kəndi vəzifəsini layiqincə icraya müstəid [qabil, qadir] ola bilər.

Məktəblərimizin tərəqqisi və təalisi [ucalması] naminə bu iki böyük ehtiyacın rəf'ini [aradan qaldırılmasını] arzu ediriz. Bu iki ehtiyac rəf olmayınca nə millət, nə hökumətimiz müəllimlərimizdən müvəffəqiyyət bəkləyə biləcək və nə də müəllimlərimiz kəndilərini məsul tutacaq.

*Talıbzadə Abdulla Şaiq*

### LƏNKƏRAN TİLSİMİ

Hökuməti-müstəbidə [istibdad hökuməti] uçdu, canişini də Qafqazdan təşrif apardı. Lakin ölkəmizdə o qədər əsərlər, o qədər yadigarlar buraxmışdır ki, qafqazlılar yüz illərcə onu fəramuş edə [unuda] bilməyəcəkdir. Bu yadigarların ən çoxu Azərbaycana qismət olmuşdur. Əzancümlə [o cümlədən], köhnə hökumət əli ilə Muğan çölündə yerləşmiş rus mühacirləri bizim üçün böyük bir duzaqdır [tələdir]. Rus hökuməti bunları buraya köçürdükdə öylə anlayırdı ki, guya mədəni (!) mühacirlər buraya köçüb də avam qalmış müsəlmanların tərəqqi və mədəniyyətinə böyük bir vasitə olacaqlar.

Bundan əlavə, sərhəd boyu yerləşmiş rus kəndləri "səddi-İskəndəri" kəsilərək Şahsevən kimi İran qaçqınlarının Qafqaz qitəsinə yapdıqları təcavüzlərinə mane olarlar. Hökumətin rəsmi bəyanatı bu idi. Lakin batinən [əsl] məqsədi ayrı idi. O da bundan ibarət idi ki, Rusiyanın mərkəz quberniyalarında dəhat əhli [kəndlilər] darısqallıq və sıxıntı çəkirdi. Torpaq cəhətindən qiyam və iğtişaş gözətlənirdi. Bəlanın dəfi üçün bunların pozğun bir hissəsini uzaq yerlərə köçürmək lazım gəlirdi. Bunları müsəlman kimi qeyri millətlərin arasında yerləşdirirdilər ki, mürurі-zamanla [vaxt keçdikcə] onlar da ruslaşsınlar. İştə rus hökumətinin bu tədbiri ilə bir əldə iki qarpız tutulurdu: Həm iğtişaşçılardan hökumət yaxasını qurtarır, həm də qeyri-rusları ruslaşdırırdı. Lakin ruslaşdırmaq məsələsində hökumətin oxu daşa dəydi. Muğan əhlindən bir nəfər də olsun ruslaşmadı. Bunun müqabilində muğanlıların yerləri qəsb olunduğu üçün mühacirlərin də hökumət nəvazişi sayəsində keyfəmayəşa ilə [kefləri istədiyi kimi] yaşadıqları cəhətə, iki millətin arasında bir ədavət əmələ gəlmişdi.

Rus qubernatorları dövründə mühacirlərin Muğan əhli ilə rəftarı çox müstəbidanə və zalimanə olduğundan, təbiidir ki, əhalinin bir gün intiqamına məruz qalacaqlardı. Bunu duymuş mühacirlər inqilab günləri ciddi tədarüklər gördülər. Cəbhədən qayıtmış mühacir saldatları özləri ilə bərabər çox tüfəng və patron gətirib qonşu müsəlman kəndlərini təhdid altına aldılar. Bəzi narəva hərəkətlərlə öz rəislərini də rəncidəxatir etdilər. Silahsız müsəlman kəndləri buna müqabil durdularsa da pozuldular. Çünki müsəlman kəndlərinin arasında ittihad və ittifaq yox idi. Bir çox müsəlman kəndləri dağıldı. Mart hadisatından sonra bolşeviklərlə bərabər buraya bir çox daşnaklar da gəldilər. Bundan sonra Avetisovun dəstəsi başsız müsəlman kəndlərinin axırına çıxır. Olmazın zülmləri, şərarəti [pisliyi] yapdılar. Yollar kəsildi, əhali şikayət etməyə bir yer tapmadı. Türklər Bakıya gəldikləri halda, Muğan ətrafının bolşeviklərlə əlaqəsi kəsildi. Buradakı sərsərilər "Muğan Hökuməti" adı ilə bir fitnə dağarcığı

